# ABŞ ikiüzlü siyasət yürüdür

**Son günlər ABŞ senatorları və konqresmenləri ölkəmiz əleyhinə qeyri-obyektiv bəyanatlar yaymaqla Cənubi Qafqazda sülhün və sabitliyin bərpa olunmasına əngəl törədirlər. ABŞ-nin ölkəmizə qarşı aşkar qərəzi, absurd bəyanatları iki ölkə arasında strateji münasibətlərə ciddi zərbə vurmaqla yanaşı, həm də Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasına mane olur. Milli Məclisin ABŞ Senatının "2023-cü il ermənilər müdafiə aktı" ilə əlaqədar qəbul etdiyi bəyanatında da ABŞ-nin belə davranışları şiddətlə qınanılıb.**



Bəyanatda qeyd olunub ki, Azərbaycan milli maraqlarına zidd olan bütün mənfi addımları qətiyyətlə və adekvat şəkildə cavablandıracaq.

Bu mövzu ilə bağlı qəzetimizə danışan Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva deyib ki, ABŞ Azərbaycana qarşı açıq-aşkar qərəzli mövqe nümayiş etdirir: "Həmçinin ABŞ-nin 30 il ərzində işğalçılıq siyasəti yürütmüş Ermənistana göstərdiyi dəstək də yüksələn xətlə inkişaf edir. ABŞ Senatının bu günlərdə "2023-cü il ermənilər müdafiə aktı"nı qəbul etməsi bunu bir daha təsdiqləyir".

Deputat xatırladıb ki, bu sənəd qəbul olunmazdan əvvəl, hələ noyabrın 15-də ABŞ-nin Nümayəndələr Palatasının Xarici Əlaqələr Komitəsinin Avropa və Avrasiya altkomitəsində "Dağlıq Qarabağın gələcəyi" mövzusunda dinləmələr də keçirilib və orada çıxış edənlər Azərbaycana qarşı düşmənçilik mövqeyi sərgiləyiblər: "Nəzərə almaq lazımdır ki, ABŞ vaxtilə ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri olub və Azərbaycan Ermənistanın işğalından əziyyət çəkdiyi 30 il ərzində Vaşinqton işğalçıya qarşı heç bir addım atmayıb. Həmin dövrdə ABŞ təcavüzkarı heç vaxt öz adı ilə çağırmayıb, əksinə, bəyanatlarda işğalçı Ermənistanın maraqlarına uyğun davranıb".

Sevinc Fətəliyevanın sözlərinə görə, Azərbaycan cəmiyyəti haqlı olaraq ABŞ-nin bu mövqeyinə etiraz edir. O cümlədən Milli Məclisin noyabrın 21-də keçirilən iclasında ABŞ Senatının "2023-cü il ermənilər müdafiə aktı" ilə əlaqədar bəyanat qəbul etməsi də tədirələyiqdir. Bəyanatda qeyd olunduğu kimi, "Azadlığa dəstək aktı"na 907-ci düzəlişin tətbiqinin dayandırılmasını ləğv etməklə ABŞ tərəfi Azərbaycana qarşı 1992-ci ildə yol verdiyi tarixi səhvi təkrarlayır. Halbuki, 2001-ci ildə baş vermiş 11 sentyabr hücumlarından sonra 907-ci düzəlişin icrasının müvəqqəti dayandırılması qərarını verən də ABŞ idi. 11 sentyabr terrorundan sonra beynəlxalq terrorizmə qarşı mübarizədə ABŞ-nin yanında olduğunu bəyan edən ilk dövlətlərdən biri məhz Azərbaycan olub. Görünən odur ki, erməni sevdası ABŞ-nin gözlərini kor edib.

"Bir sıra amerikalı konqresmen və dövlət rəsmiləri erməni diasporunun və lobbisinin əlində alətə çevriliblər. Xüsusilə Qarabağdakı separatçı rejim özünü buraxdığını elan etdikdən sonra ABŞ-nin onu müdafiə etməsi beynəlxalq hüquq normalarının açıq-aşkar tapdanmasıdır. Sözdə ərazi bütövlüyümüzü və suverenliyimizi tanıyan ABŞ ölkəmiz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdikdən sonra Azərbaycana qarşı qeyri-dost addımlarını intensivləşdirməklə ikiüzlü siyasət yeritdiyini nümayiş etdirir", - deyə deputat bildirib.

Sevinc Fətəliyeva qeyd edib ki, ABŞ beynəlxalq hüququn norma və prinsiplərini pozmaqla özünün dünyadakı nüfuzuna ciddi zərbə vurur. Bunun nəticəsidir ki, son illər qlobal miqyasda baş verən proseslər fonunda dünya xalqlarının və ölkələrin ABŞ-yə inamı ciddi şəkildə sarsılıb. Rəsmi Vaşinqton hərbi və iqtisadi təsir rıçaqları ilə dünyaya "hökmranlıq" edəcəyini, başqa dövlətlərin daxili işlərinə qarışacağını düşünürsə, yanılır. Son hadisələr fonunda isə Azərbaycan xalqı ABŞ-nin ikiüzlü siyasətinə kəskin etirazını bildirir və Milli Məclisin məlum bəyanatı da cəmiyyətimizin haqlı etirazını özündə ifadə edir.

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

Azərbaycan.- 2023.- 24 noyabr, № 256.- S.8.